İşçilərin səmərəliliyini və məhsuldarlığını artırmaq məqsədi ilə Rabitəbank öz əməkdaşlarına fəaliyyətin nəticəsindən asılı olaraq vaxtaşırı maliyyə mükafatları (bonuslar) verir.

Filiallarda ön ofis heyəti: filial müdirləri, kredit menecerləri və kreditlərin satışı ilə məşğul olan əməkdaşlara (riteyl və OKB kredit mütəxəssisləri) həm kəmiyyət, həm də keyfiyyətlə əlaqədar qarşıya qoyulmuş konkret biznes hədəflərininin (verilmiş kreditlərin sayı və məbləği, kredit portfelinin artımı, kreditlərin keyfiyyəti, faiz və qeyri-faiz gəlirləri və s.) yerinə yetirilməsinə görə aylıq, rüblük və /və ya illik bonuslar verilir.

Baş ofisin əməkdaşlarına və filiallarda kreditlərin verilməsi ilə məşğul olmayan işçilərə bankın ümumi maliyyə nəticələrindən və kəmiyyət, eləcə də keyfiyyətlə əlaqədar qarşıya qoyulmuş vəzifələrin icrası baxımından əməkdaşların fəaliyyətinin qiymətləndirilməsindən asılı olaraq rüblük və /və ya illik bonuslar verilir.

Fəaliyyətin qiymətləndirilməsinin tərkib hissələri aşağıdakılardır:

- Biznes hədəfləri (ümumi balın 60%)– tapşırıqların (müvafiq biznes planı hədəfləri və əməkdaşlara fərdi qaydada verilmiş tapşırıqlar) düzgün, vaxtında və keyfiyyətlə icra olunmasını müəyyən edir;
- Şəxsi keyfiyyətlər (10%)– ünsiyyət bacarıqları, qərarvermə, təşəbbüskarlıq və bankın dəyərlərinə sadiqlik kimi keyfiyyətlərin mövcudluğunu və ya inkişafını müəyyən edir;
- Nizam-intizam (30%) –bankın daxili prosedurlarına və təlimatlarına riayət olunmasını müəyyən edir.

Bəzi kateqoriyalı işçilər üçün ümumi bonusun bir hissəsi (30%-ə qədəri) bir ilə qədər müddətə təxirə salınır və əməkdaşın bankda davamlı fəaliyyətinə və bankın daxili qaydalarına riayət etməsinə əsasən ödənilir.